**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELLYASİYA ŞURASI**
**Q Ə R A R**
**№ 8**

**Bakı şəhəri** **17 aprel 2024-cü il**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası Nigar Mübariz qızı Hacızadənin Dövlət Statistika Komitəsinin aparatında Beynəlxalq əlaqələr şöbəsinin Məlumatların beynəlxalq mübadiləsi sektorunun aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün 2024-cü il mart ayının 13-də keçirilən müsabiqə üzrə müsahibənin nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Namizəd Hacızadə Nigar Mübariz qızı Dövlət Statistika Komitəsinin aparatında Beynəlxalq əlaqələr şöbəsinin Məlumatların beynəlxalq mübadiləsi sektorunun aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2023-cü il noyabr ayının 28-də elan edilmiş müsabiqə üzrə müsahibə mərhələsində iştirak etmişdir. Müsahibə 2024-cü il mart ayının 13-də Dövlət Statistika Komitəsi aparatının Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fərhad Əliyev, Dövlət İmtahan Mərkəzinin nümayəndəsi Günay Hacılı və müstəqil ekspert Mehriban Babaxanovadan ibarət komissiya tərəfindən keçirilmişdir. Hacızadə Nigar Mübariz qızına müsahibə komissiyasının üzvlərindən F.Əliyev 14 bal, G.Hacılı 15 bal və M.Babaxanova 15 bal vermiş və nəticədə iştirakçı 14.7 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına 15.03.2024-cü il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apellyasiya Şurasının iclasında aparılmış müzakirələrə əsasən namizədin vəzifəyə uyğun hesab edilmədiyi müəyyən edilmişdir.

Yuxarıda göstərilənlər və Apellyasiya Şurası üzvlərinin müzakirələrdən sonra gəldiyi yekun nəticə nəzərə alınaraq Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası **qərara aldı**:

1. Hacızadə Nigar Mübariz qızının 2024-cü il 15 mart tarixli apellyasiya şikayəti təmin edilməsin və Dövlət Statistika Komitəsinin aparatında Beynəlxalq əlaqələr şöbəsinin Məlumatların beynəlxalq mübadiləsi sektorunun aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün 2024-cü il mart ayının 13-də keçirilən müsabiqə üzrə müsahibənin nəticəsi qüvvədə saxlanılsın.

2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətinin üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə və şikayətçiyə təqdim edilməsini təmin etsin.

**Sədr** **Vahab Məmmədov**

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
SƏNƏDLƏR ÜÇÜN

Əsli ilə düzdür: